# Tələbkar və qayğıkeş elmi rəhbərim - Qəzənfər Kazımov



-Ağız Nigar, bir gözün uşaqda, bir gözün kitabda, yazı-pozunda olsun!

Bu, Qəzənfər müəllimin aspirant olduğum dövrdə (2003-2006)mənə tövsiyəsi idi.

Elnazı sinfə ötürüb (Elnaz ibtidai sinifdə oxuyur) məktəbinyaxınlığındakı həyətlərdən birində - ağacın altındakı skamyada əyləşdim və kitabı açdım. Həmişə təsirə düşməkdən ehtiyat edib istifadə edəcəyim qaynaqlara sonda baxıram. Bu dəfə vaxt yoxdur. Konfransa sayılı günlər qalıb. Ailə qayğılarıma baxmayaraq, Qəzənfər Kazımovun 85 illiyinə həsr edilmiş konfransda həm də elmi məqalə ilə iştirak etməliyəm. Mənim aspirantlıq müddətim başa çatanda Qəzənfər müəllimin 56 kitabı, 300-dən çox elmi və elmi-publisistik məqaləsi çap edilmişdi. İndi həmin say daha da artıb...

"Professor Qəzənfər Kazımov" kitabını (Bioqrafik və biblioqrafik məlumat kitabı. Bakı,"Nurlan", 2007, 350 s.) ilk dəfə görürmüşəm kimi elə ilk cümləsindən diqqətlə oxumağa başladım (Kitab çapdan çıxan zamanda oxumuşdum). Orta məktəbdə 8-10-cu siniflərdə təhsil aldığım dövrdə, mübaliğəsiz deyirəm, heç bir bədii əsəri oxuyarkən indiki qədər təəsirlənməmişdim. Qəzənfər müəllimin çətinliklər dolu taleyi... Bu kəşməkəşli həyat yolu bütün enişli-yoxuşlu məqamları ilə gənclərə örnəkdir. Qəzənfər müəllim həm müdrik insan olaraq, həm böyük alim olaraq elə bir şəxsiyyətdir ki, Onun haqqında qələmi vərəqdən ayırmadan, ardıcıl, birnəfəsə Azərbaycan dilinin lüğət tərkibindəki ən gözəl, ən layiqli ifadələri düzməklə şəninə söz söyləmək olar.

2005-ci ilin sonu idi. Akademik Ağamusa Axundov aspirantların attestasiyasını edəcək, illik hesabatları dinləyəcəkdi. Biz qəbul otağına toplanmışdıq. Birinci ili başa vurmuş aspirant yoldaşlardan biri - Zamiq Təhməzov elmi rəhbərimin Qəzənfər Kazımov olduğunu eşitdikdə "O xoşbəxt aspirant sizsiniz? Mənim müəllimim olub. Mən qəbul olanda elmi rəhbərimin Qəzənfər Kazımov olmasını arzu etdim..."

Qəzənfər Kazımov uzun illər Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi olub (Mən Bakı Dövlət Universitetini bitirmişəm). Qəzənfər müəllimi ilk dəfə AMEA Nəsimi adına Dilçilik İnstitutunda görmüşdüm. Qəzənfər müəllimin tələbəsi olmuş aspirant yoldaşdan Onun haqqında xoş sözləri eşitdikdə sevincimin həddi yox idi.

Buna oxşar hadisə illər sonra yenə baş verdi (Bu dəfə kimdənsə Qəzənfər müəllim haqqında fikir eşitməyə ehtiyac yox idi, dəyərli insan, böyük alim mənə bəlli idi). Nəşriyyata məqalə təqdim etmək üçün getmişdim. Qapını açdım. Nahar fasiləsinin sonu idi, xanım hələ qayıtmamışdı. Hörmətli alimlərimiz söhbət edirdilər. Qapını örtüb gözləməyə qərar verdim. Bu zaman eşitdiyim sözlərdən yenə də ürəyim dağa döndü: Çağdaş dövrümüzdə ən güclü iki dilçi almimizdən biri Qəzənfər Kazımovdur. İkincisi... Sevindiyimdən fikrim uzaqlaşdı. Gözümün önündə Qəzənfər müəllimin ətrafına ziya, nur saçan ziyalı portreti idi. Özümü topladım. Bəs ikinci kimdir? Maraq məni söhbətə qaytardı. Amma gec idi. Məqamı ötürmüşdüm...

-Ağız Nigar, bir əlin uşaqda, bir əlin kitabda olsun!

Ziyanı (10-cu sinfi bitirir) Kamran Əliyevin Azərbaycan dili (Abituriyentlər üçün vəsait. "Elm və təhsil", Bakı, 2015.) kitabından Azərbaycan dilinin üslubları (Bədii, Elmi, Publisistik üslublar) mövzusunda sual-cavab etdikdən sonra yatmağa göndərdim. Artıq gecə saat 12 idi. Yenidən kitaba davam etməyə başladım... Saat 2-nin yarısı. Masada üzərində Qəzənfər müəllimin ziyalı portreti olan kitab, televiziyada "Redaktor" verilişində dosent Şahalar Məmmədovun " Söz yaradıcılığı və ya sözyaratma" mövzusunda müsahibəsi...

2010-cu ildə Əzizxan müəllimlə (iş yoldaşımız, mərhum professor Əzizxan Tanrıverdi) söhbətim ("Dədə Qorqud" şöbəsində) yadıma düşdü: - Müəllim, mən dilçilik mühitindən uzaq düşmüşəm.

- Tofiq müəllim burada, Məmmədəli Qıpçaq burada, Xuraman xanım burada, mən burada. Belə düşünməyi fikrindən çıxart.

Qərəz ki, yuxulu görsənsəm də, diqqətlə oxuyurdum. Bu arada dissertasiya işimin aparıcı müəssisədə müzakirəsi zamanı tanış olduğum Nuridə Novruzovanın tələbəlik xatirəsi yerinə düşdü: "Mən dərsi danışdığım müddətdə Siz başınızı əllərinizin arasına alıb stolda oturmuşdunuz. Gözləriniz yumulu kimi olduğu üçün mənə elə gəlirdi ki, mürgüləyir və mənə qulaq asmırsınız. Dərsi danışıb qurtardım.

Və mənim bütün dediklərim fikirlərə bir-bir öz münasibətinizi bildirdiniz, danışıb qurtardığım mövzunu təhlil etdiniz, səhvlərimi göstərdiniz, mövzunu izahetdiniz. Mən çox təəccüblə Sizi dinləyirdim və utanırdım. Onda başa düşdüm ki, Siz məni nə qədər dinləyirdiniz. Sonralar Sizinlə yaxından tanış olanda bildim ki, çox vaxt bir adama diqqətlə qulaq asanda başınızı əllərinizin arasına alıb, gözlərinizi də qismən yumursunuz". Nuridə xanımın bu xatirəsini olduğu kimi qeyd etdim, çünki yalnız Nuridə Novruzovanın deyil, hətta gündüzdən bəri diqqətlə oxuduğum digər xatirələrdə söyləilənlərin də əksəriyyəti mənim müşahidələrimin eynisi idi.

Hələ ali məktəbdə oxuyarkən böyük alimlərimizin bəziləri haqqında televiziyada xatirələr danışılanda tələbəsinə, aspirantına qayğıkeş münasibət bildirən müəllimlərə təəccüb edirdim. "Alim olmaq asandır, insan olmaq çətin" deyilib. Haradan oldu asan? Bir şəxsin seçdiyi ən çətin yol, məhz alim ola bilməkdir ki, insan ola bilmək çətinlikdə alimliklə müqayisə edilir. Bu səbəbdəndir ki, mən bu yazımda böyük alimin heyran olduğum insani keyfiyyətlərini ziyalılarımızla bölüşmək istədim.

Dekabrın sonu - Yeni ilə az qalmış zamanda dissertasiya işimin müzakirəsi üçün elmi seminar təyin olunmuşdu. Məhəbbət xanımın səhhətində problem olduğu üçün təxir oldu. Tortu şöbədə kəsməyimə razı olmadı Qəzənfər müəllim: - Bayramqabağıdır. Apar, evdə uşaq yesin.

Zaman bu addımdakı incəliyi mənə aydın etdi. Qəzənfər müəllimin yüksək keyfiyyətlərə malik insan olması, böyük alim olması Onun hər bir tələbəsinə, aspirantına gün kimi aydındır. Odur ki dəyərli insan, ciddi alim, sərt, tələbkar, eyni zamanda qayğıkeş elmi rəhbər Qəzənfər Kazımovun varlığı münasibətilə Qəzənfər müəllimi və onun yetirməsi olan saysız tələbələrini, dissertantlarını, doğmalarını, dostlarını təbrik edirəm! Əli Rza Xələflinin dediyi kimi:

Hələ ömrün zirvəsinə yeriyərsən idrakınla,
İllərinə canlı heykəl doxsan nədir, yüz yaradıb.

Hörmətli Elmi rəhbərimə möhkəm can sağlığı, yaradıcılıq uğurları, 90, 100 illiyini yenidən birlikdə qeyd etməyimizi arzu edirəm.

**May 2022**

***Nigar* Həsənova *,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***dosent***